“Azərbaycan Demokratiya və Rifah” (ADR) Partiyasının 17 oktyabr 2021-ci il tarixli təsis Qurultayında qəbul edilmişdir.

# ADR Partiyasının Proqramı

Bir əsrdə iki dəfə müstəqillik qazanmış Azərbaycan birinci cəhddə özündən asılı olmayan səbəblər ucbatından müasirləşməyə, mütərəqqi Avropa və İslam dəyərlərinə əsaslanan uzun inkişaf yolunda davam edə bilmədi, demokratik və azad bir ölkə kimi civil dünyaya inteqrasiya prosesi yarımçıq qaldı. İkinci müstəqillik dövründə cümhuriyyətçilərin edə bilmədiklərini reallaşdırmaq üçün mühüm addımlar atan demokratik hakimiyyətə daxili və xarici anti-Azərbaycan qüvvələrinin dəstəklədiyi silahlı qiyam imkan vermədi. Hakim rejimin mövcudluğu isə Azərbaycanda demokratik və açıq cəmiyyət quruculuğuna, azadlıqların təminatına, avro-atlantika məkanına inteqrasiyaya, neft gəlirlərinin ədalətli bölüşdürulməsinə, insan kapitalının inkişafına və milli iqtisadiyyatın şaxələndirilməsinə əngəlləyici təsirlərini göstərməkdədir.

Ölkədə demokratik institutların zəifldədilməsi, müstəqil vətəndaş cəmiyyətinin və azad mətbuatın sıradan çıxarılması məqsədilə hakimiyyət tərəfindən aparılan ardıcıl və sistemli siyasətin nəticəsi olaraq insanlarda gələcəyə ümid azalmış, biganəlik və inamsızlıq geniş vüsət almışdır. Ölkəni sivil qaydada idarə edəcək institutlar yaradılmadığından cəmiyyətdə sağlam ictimai-siyasi davranışlar formalaşmamışdır.

Siyasi tarix təcrübəsində heç zaman insan haqlarına hörmət bəsləməyən totalitar sistem və ya siyasi hüquqları pozan, lakin iqtisadi hüquqlara zəmanət verən avtoritar sistem, davamlı olaraq inkişaf edə bilməz. Son nəticədə bu sistem həm özünü və həm də dövləti dağıdır. Belə sistem mürəkkəb daxili və xarici problemləri həll etməyə qadir ola bilməz.

Odur ki, ADR Partiyasının təsisçiləri sələflərimizin qoyduqları hədəflərə çatmaq, ölkə ərazilərinə tam nəzarət edən suveren, demokratik idarəçiliyə əsaslnana hüquqi dövlət qurmaq, fundamental azadlıqlara və gender bərabərliyinə əsaslanan mülki cəmiyyət formalaşdırmaq, yüksək rifahı təmin edən korrupsiyasız idarəetməyə, social həmrəyliyə və azad iqtisadiyyata nail olmaq, Avropa ailəsinin bərabərhüquqlu üzvü olmaq kmi taleyüklü proseslərin aparıcı qüvvəsinə çevrilmək məqsədi ilə “Azərbaycan Demokratiya və Rifah” (ADR) Partiyasının yarandığını elan edir.

Partiyanın məqsədi demokratik və azad seçki yolu ilə hakimiyyətə gəlmək, Azərbaycanda etnik, dini, siyasi mənsubiyyətindən asılı olmayaraq hər bir ölkə vətəndaşının hüquq və azadlıqlarını və yüksək rifahını təmin edəcək azad, demokratik

cəmiyyətin və hüquqi dövlətin qurulmasına töhfə verməkdir. Bu məqsədlə ölkənin siyasi həyatında daha yaxından iştirak etmək, demokratik prosesləri gücləndirmək üçün Partiya qarşısına aşağıdakı vəzifələri qoyur:

- Ölkənin siyasi, iqtisadi və ictimai həyatının müxtəlif sahələrində liberal islahatların aparılmasını özündə təcəssüm etdirən proqram və konsepsiyalar işləmək;
- Siyasi motivlərlə həbs olunmuş məhbusların azad edilməsi, siyasi, ictimai fəaliyyətə görə təqiblərə birdəfəlik son qoyulması, vətəndaşların sosial, iqtisadi, mülki və siyasi hüquqlarının Avropa standartlarına uyğun şəkildə bərqərar olması uğrunda fəaliyyət göstərmək;
- Ölkədə vətəndaş sülhünün, milli birliyin və ictimai həmrəyliyin yaradılmasına, dialoqun təşkilinə yardım etmək, cəmiyyətdə vətənpərvərlik ruhunun yüksəldilməsinə çalışmaq;
- Vətəndaş cəmiyyətinin əsas elementi olan müstəqil qeyri-hökumət təşkilatlarının, azad mətbuatın və siyasi partiyaların fəaliyyəti üçün normal şərait yaradılmasına çalışmaq;
- İqtisadiyyatın liberallaşdırılması, azad sahibkarlığın inkişafı, neft gəlirlərinin ədalətli bölüşdürülməsi və səmərəli idarə edilməsi yolu ilə ölkə vətəndaşlarının layiqli və təminatlı sosial müdafiəsinə nail olmaq və rifahını yüksəltmək.

ADR Partiyası qaşrısına qoyulan məqsəd və vəzifələri yerinə yetirmək üçün ilk növbədə idarəetmədə struktur dəyişilikləri yolu ilə hakimiyyət bölgüsünün düzgün təşkilini, bazar iqtisadi sisteminə keçidi başa çatdırmaq məqsədilə iqtisadiyyatı tənzimləyən və mühafizə edən institutların yaranmasını hədəfləyən islahatlara start verəcəkdir. İslahatlar yolu ilə ADR Partiyası:

- Azad və şəffaf referendum keçirməklə Konstitusiya islahatları aparıb dövlət idarəestməsinin düzgün, effektiv, rasional və tarazlı təşkilinə nail olacaq;

- Azad, ədalətli seçki yolu ilə icra hakimiyyətinə nəzarəti həyata keçirən və ondan hesabat tələb edə bilən parlament formalaşdıracaq;

- Konstitusiyaya zidd olan qanunları ləğv edə bilən Konstitutsiya Məhkəməsi formalaşdıracaq;

- Ədalətli mühakiməni təşkil edə bilən heç bir hakimiyyət qolundan asılı olmayan azad məhkəmə sistemi formalaşdıracaq;

- Dövlət xəzinəsini müflis eləməyə, milli sərvət və gəlirlərin xaricə daşınmasına imkan verməyən müstəqil Mərkəzi Bank yaradacaq;

- Azad, ədalətli və şəffaf bələdiyyə seçiləri təşkil etməklə böyük şəhərlərin idarəçiliyini təşkil edəcək, bununla yanaşı rayon, şəhər İcra hakimiyyətlərini ləğv edib, onun səlahiyyətlərini yeni formalaşmış bələdiyyələrə verəcək;

- Hökumət, parlament və hüquq mühafizə, prokurorluq orqanları və məhkəmə hakimiyyəti üzərində vətəndaş nəzarətini həyata keçirən azad mətbuat və qeyri hökümət təşkilatları üçün əlverişli fəaliyyət mühitini təmin edəcək;

- Toplum olaraq ictimai şüura yiyələnən və demokratik təfəkkürə malik fəal vətəndaşlar üçün siyasi maarifləndirmə işi aparacaq, düşünən beyinlərin ictimai-siyasi təşkilatlarda cəmləşməsinə şərait yaratmaqla hakimiyyətin cəmiyyət üzərində hökmranlığına son qoyacaq.

Azərbaycanda ideoloji bazada təşkilatlanma təcrübəsi yalnız dövlət müstəqilliyinin bərpası uğrunda Milli Azadlıq Hərəkatı dövrünə təsadüf edib. O, zaman anti-kommunist ideologiyasının daşıyıcıları olan millətçilər dövlət müstəqilliyinin bərpası üçün xalq hərəkatında birləşdilər. Onların ardıcıl mübarizəsinin nəticəsi olaraq mövcud üsul-idarənin siyasi dayağı olan ehkamçı kommunist ideologiyası iflasa uğradı, 18 oktyabr 1991-ci ildə dövlət müstəqilliyi bərpa olundu. Demokratik qüvvələrin hakimiyyəti dövründə hakim mövqeyə malik olan millətçilik kollektiv inam və düşüncə səviyyəsinə qalxa bilmədi, onun bazasında yeni yaranan siyasi təşkilatların əksəriyyəti ideoloji əsasda deyil, opportunist mənafelər və merkantilist maraqlar üzrərində formalaşdı. Hakimiyyətə münasibətdə mövqeyindən asılı olmayaraq heç bir siyasi təşkilat kollektiv şüur dəyərlərinə əsaslanaraq cəmiyyətin fəal kəsimini bir məxrəcə gətirə bilmədi. Elə o vaxtdan cəmiyyətdə çox ciddi ideoloji boşluq yarandı.
ADR Partiyasının proqramı iqtisadiyyatda liberalizm dəyərləri (fərdi azadlıqlar (siyasi), sosial ədalət (bərabərlik), mülkiyyət azadlığı (iqtisadi), məhdud və demokratik hakimiyyət (idarəetmə), qanunun aliliyi (hüquq)) üzərində formalaşır, sağ mərkəzçi prinsiplərni dəstəkləyir.

Liberalizm ifadə, mətbuat, din və etiqad, sərbəst toplaşma azadlıqlarını ehtiva edir və cəmiyyət üzvlərinin imkanlarından yüksək heç nə vəd etmir, yalnız cəmiyyətin üzvlərinin imkanları, insan kapitalı hesabına dinc və azad mühitdə insanların maddi rifahın yaxşılaşmasını təklif edir.
ADR Partiyasının proqramı aşağıdakı məsələlərə münasibətdə bu dəyərləri dəstəkləyir.

1) **Dövlətin iqtisadiyyatda iştirakı.** Hökumətin fəaliyyətinin sərhədləri insanların həyatı, sağlamlığı, azadlığı və mülkiyyət hüquqlarının qorunması ilə məhdudlaşır. Dövlətin iqtisadiyyatda rolu müəssisələrin və istehlakçıların iqtisadi davranışları üçün hüquqi və tənzimləmə çərçivə şərtlərinin yaratmaqdır. Dövlət tənzimlənməsi məhdud xarakter daşıyır və əsasən makroiqtisadi prosesləri əhatə edir. Dövlət əhalinin bir çox zəruri yaşayış problemlərinin həll edilməsində, sosial məqsədlərin həyata keçirilməsində yalnız keçid mərhələsində iştirak edir və uzunmüddətli dövrdə bundan da tədric edilir. Keçid dövründə dövlət inhisarında olan iri şirkətlər özəlləşdirilir, səhmləşdirilir və ölkədə kapital bazarı formalaşdırılır və dövlətin iqtisadiyyatda iştirakı aşağı salınır.
2) **Iqtisadi sistem.** İqtisadi sistemin idarəçiliyində azad bazar iqtisadiyyatına üstünlük verilir. Azad bazar iqtisadiyyatına keçid islahatları davam etdirilir. İri dövlət müəssisələrinin özəlləşdirilməsi başa çatdrıqdan sonra tariff tənzimlənməsinə son qoyulur. Qiymətlər sərbəstləşdirilir. Dövlət rəqabəti dəstəkləyir, anti-inhisarçılıq qurumunun səlahiyyətləri artırılır və müstəqilliyi təmin edilir. Bununla yanaşı bazar üçün tənzimləmə çərçivəsini təyin edən, rəqabət yaradan və bazarın təzyiqinə qarşı daim hazır olan güclü dövlət qurulur və institutlar yaradılır.
3) **Açıq bazar.** Bütün bazarlara sərbəst çıxışın olmasına zəmanət verilir, inhisarçı və oliqopol bazarlara giriş baryerləri aradan qaldırılır. Bazara sərbəst çıxış olduqda inhisarçılıq mövcud ola və kartellərin təsiri arta bilməz. Açıq bazarlar hakim qüvvənin və bununla bağlı gəlirlərin meydana gəlməsinə əngəl olur.
4) **Mülkiyyət hüquqları.** Mülkiyyətin toxunulmazlığı yalnız qanunla deyil, həm də qanunun aliliyi ilə təmin olunur. Müstəqil məhkəmə hakimiyyəti qurulur. Azərbaycan Dünya Ticarət Təşkilatına üzv olur. Bununla bütün növ mülkiyyət hüquqlarının, o sıradan əqli mülkiyyətin qorunmasının beynəxlalq səviyyədə inteqrasiyasını təmin edir. Mülkiyyət sahiblərinin hüququ qorunmaqla yanaşı mülkiyyət sahibliyinin açıqlığı və şəffaflığı təmin edilir. Mülkiyyət sahibləri arasında

xırda investorlar və səhmdarların hüquqları xüsusi mexanizmlə daha yüksək səviyyədə qorunur.

5) **Müqavilə azadlığı.** İqtisadi subyektlər həmişə kiminləsə və hansısa məzmunda müqavilələr bağlamaqda sərbəstdir, lakin sərbəstlik bu müqavilələr qeyd edilən hüquqların pozulmasına, yaxud da rəqabətin məhdudlaşdırmasına gətirib çıxarmamalıdır.
6) **Kapitala amnitsiya.** Kapitalın sərmayəyə çevrilməsini və əlavə dəyər yaratmasını təmin etmək üçün mənbəyindən və miqdarından asılı olmayaraq bütün növ yığımlara amnitsiya verilir. Kapitala amnitsiyanın maliyyə, vergi və iqtisadi formalarından istifadə olunur. Kapital sahiblərinin hüquqları və kapital münasibətləri qanunla qorunur. Formalaşması mübahisə doğuran kapital münasibətləri yalnız müstəqil məhkəmə müstəvisində həll olunur.
7) **Sərbəst qiymətqoyma.** Qiymətlər bütün bazarlarda sərbəstləşdirilir. Valyuta tənzimlənməsinin çevik və bazar qüvvələrinin idarəçiliyində olan formasına keçid təmin edilir. Manatın məzənnəsi üzən valyuta rejimində bazar qüvvələrinin iştirakı ilə müəyyələşdirilir. Sabit və etibarlı valyuta rejimi formalaşdırılır. İnflyasiya monetar və qeyri-monetar amillərlərin təsiri ilə tənzimlənir. İnzibati müdaxilələrə yol verilmir.
8) **Sosial ədalət və bərabərlik.** İnsanlara bərabər imkanlar və fürsətlər tanınır, hamı qanun qarışısında bərbər olur, kimsə siyasi və etnik mənsubiyyətinə görə üstün rol qazanmır. Milli və etnik azlıqların mədəni və təhsil hüquqları qorunur. Onların qərarların qəbulunda iştirakçılığı təmin edilir.
9) **Dinə münasibət.** Din siyasətdən ayrı tutulur. Bütün dünyagörüşlər kimi dinə qarşı dözümlülülk, anlayış təbliğ edilir. Dinə və dünyagörüşə qarşı hər cür dözümsüz davranışa imkan verilmir. Yalnız dözümlülük sosial birgəliyi və konsensusu saxlaya bilər. Əks halda Azərbaycan yüz illər öncə can qurtardığı vəhşiliyə, istibdada və yoxsulluğa dönə bilər. Yanlış, qəddar, zərərli dünyagörüş və cərəyanlarla sərt güc, repressiya və zoraklıqla deyil, ağlın gücü ilə yanaşılır.
10) **Hüquqi dövlət.** Qanunun aliliyi təmin olunmaqla hüquqi dövlət qurulur. Cinayətkarlar cəzalandırılır, cəza yalnız cəmiyyət üçün təhlükəli əmələ tətbiq edilir, cəzalar hakimin və polisin nifrəti, zorakılığı, qırğına susamış kütlənin linçi ilə deyil, qanunun gücü ilə baş verir. Cəza repressiv olmur. Dövlət aparatı gücləndililir, amma onun zor aparatı kimi istifadəsinə imkan verilmir.

**ADR Partiyası hesab edir ki,** korrupsiya ilə mübarizə cəmiyyətlə birlikdə aparılmalıdır. Bunun üçün ilk növbədə rüşvətxorluğu və korrupsiyanın aradan qaldırılması üçün açıq hökümət qurulur, hakimiyyətin qolları müstəqil fəaliyyət göstərir, şəffaflıq və hesabatlılıq öhdəliyə çevrilir. Müstəqil vətəndaş cəmiyyəti və azad mətbuat formalaşdırılır. Parlamentdə "Rəqabət Məcəlləsi", "Büdcə Məcəlləsi", "Maraqlar toqquşması haqqında", "Məlumatlandırıcının müdafiəsi haqqında", "Dövlət maliyyə nəzarəti haqqında", "Mülkiyyət sahibliyinin açıqlanmasına dair" Qanunlar qəbul edilməli, Mülkiyyət sahibliyinə və şirkətlərin ödənişlərinə dair məlumatların açıqlanmasına olan qadağalar "Kommersiya sirri haqqında" Qanundan çıxarılmalı, mövcud qanunlar anti-korrupsiya ekspertizasından keçirilməlidir.
ADR Partiyası korrupsiya ilə mübarizənin ilk şərti kimi bütün dövlət məmurlarının və parlament üzvlərinin "Gəlirləri və əmlakına dair bəyannamə"lərini dərc etmələrinin olduğunu bildirməklə yanaşı ölkədə məhkəmə hakimiyyətinin icra və digər hakimiyyətlərdən asılılığına son qoyulmalı, müstəqil Mərkəzi Bank yaradılmalı, azad mətbuat və vətəndaş cəmiyyətinin fəaliyyəti üçün əngəllərin aradan qaldırılmalı olduğunu, şəffaflıq, hesabatlıq və informasiyaya çıxış imkanlarının artırılmalısının vacibliyini qeyd edir.

**ADR Partiyası hesab edir ki,** mövcud acınacaqlı vəziyyətdən qurtulmaq üçün həyatımızın bütün sahələrinə dair islahatlar proqramını işləyən libertarianist düşüncəli mütəxəssislərdən ibarət islahatçı komanda ilə Azərbaycanda islahatlar çox effektli şəkildə həyata keçirilə, milli iqtisadiyyatın rəqabət qabliyyəti və xalqın maddi rifahı tezliklə yaxşılaşdırıla bilər.

**ADR Partiyası hesab edir ki,** gənclik hər zaman cəmiyyətin aparıcı qüvvəsi olmalıdır. Məhəmməd Əmin Rəsulzadə 1914-cü ildə yazdığı "Milli Dirilik" məqaləsinin sonunda üzünü gənclərə tutub deyirdi: "Ey millətin istiqbalını təmin edəck Türk gəncliyi hardasan?".Məhz elə bu çağırışların nəticəsində çox keçmədən Azərbaycanın aparıcı gəncliyinin nümayəndələri olan ziyalılar istiqlal mübarizəsinə başladılar. Bugünkü gənclik məhz həmin mübariz gəncliyin xələfidir. ADR Partiyasında cəmləşən gənclər demokratik mübarizənin önündə getməklə haqsızlıqla, ədalətsizliklə barışmadıqlarnı nümayiş etdirəcəklər.
ADR Partiyası hesab edir ki, dövlət yeni evlənən, evi olmayan və yaxud evlənmək istəyib buna yetərincə büdcəsi olmayan gənclərə yardım etməlidir.

**ADR Partiyası hesab edir ki,** kişilərin və qadınların ölkənin iqtisadi həyatında bərabər iştirakı təmin olunmalıdır. Bundan əvvəl qadınlara qarşı psixoloji, fiziki və digər zorakılıqların qarşısının alınması üçün cəmiyyət səfərbər olunmalıdır. Qadın zorakılğına qarşı effektiv mübarizə üçün bütün tərəflər - dövlət, cəmiyyət, QHT-lər, akademik institutlar və mətbuat səylərini birləşdirməli və bütün subyektlərin iştirakı ilə xüsusi proqram hazırlanmalıdır. Preventiv tədbirlər kimi, hər zaman maarifləndirmə işi aparılmalıdr. Bu məqsədlə erkən yaşlardan bu məsələ ilə bağlı bilik formalaşdırılmalıdır. Zorakılıq qurbanlarına yardım, fiziki və psixoloji zoraklığın fəsadlarının aradan qaldırılması mexanizmi hazırlanmalıdır. Eyni zamanda qadınlara qarşı zorakılıga görə cəza sərtləşdirilməlidir.

**ADR Partiyası hesab edir ki,** səhiyyədə uğurlu dövlət modeli kimi ilkin səhiyyə xidmətlərinin əlçatanlığı, xidmətlərin verilməsində bərabərliyin təminatı və xidmətlərin keyfiyyətinin qaldırılması üçün Sosial Rifah Dövləti anlayışı qəbul olunmalıdır. Səhiyyədə işəgötürənlər, işçilər və sosial dəstəyə ehtiyacı olan əhali qrupları üçün sığorta haqqı ödənişi dövlət tərəfindən maliyyələşdirilir. Ümumi olaraq səhiyyə xidmətləri ixtisaslaşma dərəcəsinə görə əsasən 3 səviyyədə təmin edilir: Birinci Səviyyə Ailə Həkimi/Sahə Həkimi, İkinci Səviyyə- Dar İxtisas Həkimləri və Üçüncü Səviyyə Yüksək İxtisaslı həkimlərin göstərdikləri xidmətlər. Sığorta Səhiyyəsinin effektiv (qənaətcil) tətbiqi üçün ilk növbədə Ailə Həkimliyi Sistemi yaradılmalıdır.
İcbari Tibbi Sığorta Tətbiq edilən bütün ölkələrdə Xidməti verən tərəf Xidməti alan tərəfdən aslı olmadan tam müstəqil şəkildə çalışır və burda maraqların kəsişməsi aradan qaldırılır. Xidməti verən tərəf daha az maliyyə xərcləməkdə maraqlıdır, Xidməti verən tərəf daha çox (daha bahalı) xidmət verməkdə. Bu qurumların birini o birinə tabe etdirildikdə rəqabət ortadan qalxır, yalnız bir tərəfin marağı təmin olunur ki, nəticədə xidmət keyfiyyətini yüksəkdə saxlamaq demək olar ki, mümkün olmur. Tibbi Xidmətlərin yalnız adları çəkilən qurumlardan alınması, digər özəl xəstəxanaların səhiyyə xidmətlərin verilməsindən kənarda saxlanılması rəqabətliliyə mənfi təsir edəcəkdir. Xidmətləri alarkən şəffaflığın təmin olunması, qiymət və keyfiyyət standartları əvvəlcədən müəyyən olunub digər özəl xəstəxanaların da İcbari Tibbi Sığorta sisteminə cəlb olunması İcbari Tibbi Sığorta daxilində verilən Səhiyyə Xidmətlərinin çeşid və keyfiyyətinin artmasına gətirib çıxaracaqdır.

**ADR Partiyası hesab edir ki,** keyfiyyətli təhsil güclü dövlət deməkdir. Odur ki, ilk növbədə təhsil sisteminin bütün sahələrini özündə ehtiva edən uzunmüddətli Təhsil konsepsiyası hazırlanmalıdır. Bu proqramda orta ümumtəhsil məktəbi üzrə orta təhsil sisteminin çevikliyinin artması üçün məktəblərə inzibati və maliyyə müstəqilliyi verilməlidir. Ali məktəb üzrə Boloniya prosesinə ölkə universitetlərinin hamısı tam olaraq uyğunlaşdırılmalıdır. İstedadlı Azərbaycan gənclərinin xaricdə nüfuzlu Universitetlərdə təhsili dövlət proqramı çərçivəsində maliyyələşdirilməlidir.
Dövlət universitetlərində təhsil almaq şansı əldə edən hər bir tələbə dövlət tərəfindən pulsuz təhsillə təmin edilməli və özəl universitetlərə daxil olan yerli tələbələr dövlət sifarişi ilə oxumalıdırlar. Ali təhsil yalnız xarici tələbələr üçün ödənişli olmalıdır. Özəl universitetlərdə qiymətləri yüksək olan tələbələrin illik təhsil haqqının bir hissəsi dövlət tərəfindən qarşılaması tələbələr arasında rəqabəti artıra bilər. Universitetlərdə fəaliyyət göstərən müəllim kollektivi akademik dərəcəyə malik olmalı və yüksək əmək haqqı ilə təmin edilməlidir.

**ADR Partiyası hesab edir ki,** pensiya yaşı aşağı salınmalı, pensiyalar gözlənilən pensiya müddətinin faktiki orta göstəricinə müaviq əsasda hesablanmalıdır. Şəhid ailələrinin, Qarabağ müharibəsi qazilərinin, I və II qrup əllilərin illik müayinələri və həyati əhəmiyyətli əməliyyatların bütün ödənişlərini dövlət öz üzərinə götürməlidir. Aztəminatlı ailələrdə 0-18 yaşlı uşaqlara onların yaşayış minimumun dəyərində yardım edilməlidir.

**ADR Partiyası hesab edir ki,** dövlət vətəndaşlarının xüsusən uşaqlar və gənclərin sağlam bir cəmiyyətdə böyüməsini təmin etmək üçün narkotik vasitələrin satışına görə daha sərt cəzalar nəzərdə tutmalıdır. Ölkə üzrə narkotiklə mübarizədə fəaliyyət göstərən səhiyyə müəssisələri narkomaniyadan əziyyət çəkən şəxslər üçün əl çatan olmalıdır. Bu şəxslərin ailə üzvləri tərəfindən dövlət qurumlarına və səhiyyə müəssisələrinə olan müraciətlər dərhal diqqətə alınmalı, islah və sağalma müddətində davranışları nəzərə alınaraq məhkum olunmadan yalnız tibbi məcburi tədbirlər nəzərdə tutulmalıdır.

**ADR Partiyası hesab edir ki,** hərbi xidmət üçün nəzərdə tutulan minimum yaş 18-dən 20 yaşa qaldırılmalıdır. Həqiqi hərbi xidmətə çağırış 25 yaşına kimi kişi vətəndaşların öhdəliyinə verilməlidir. Bu hal orduda az yaşlı gənclərin deyil, daha yetkin kişi vətəndaşların iştirakını təmin edəcək, ordunun təcrübəsini və orduda xidmət edənlərin

məsuliyyətini artıracaqdır. Hazırda ali məktəbdən məzun olan vətəndaşlar ilə 18 yaşına çatmış vətəndaşların hərbi xidmət müddəti arasında 6 ay fərq vardır. Təhsil səviyyəsindən asılı olmayaraq hər kəsin bərabər şərtlər və müddət ərzində hərbi xidmətdə olması təmin olunmalıdır. Bu müddət yaşından aslı olmayaraq hər bir kişi vətəndaş üçün 1 il müəyyən edilməlidir. Bu orduda ayrı-seçkiliyini aradan qaldırıb bərabərliyi təmin edəcəkdir.

**ADR Partiyası hesab edir** ki, hüquq-mühafizə, təhlükəsizlik və müdafiə orqanlarının fəaliyyətini tənzimləmək məqsədilə bütün bu qurumların fəaliyyətinə dair hesabatlar daimi olaraq Milli Məclisə və onun müvafiq daimi komitələrinə təqdim olunmalıdır. Dövlət İstintaq Komitəsi. (DİK) yaradılmalı və bütün dövlət orqanlarının tərkibindəki istintaq qurumları ləğv olunaraq onun tərkibinə, eləcə də Dövlət Təhlükəsizlik Xidməti, polis, prokurorluq orqanlarının, habelə Dövlət Gömrük Komitəsinin və Vergilər Nazirliyinin tərkibindəki iqtisadi cinayətlərlə mübarizə qurumlarının səlahiyyətləri DİK-ə verilməlidir. Güc strukturlarının siyasi proseslərə cəlb olunmasının qarşısını alan müvafiq qanun və tənzimləmələr qəbul olunmalıdır.Maliyyə cinayətlərinin araşdırılması və maliyyə sərfiyyatının həyata keçirilməsi məsələlərinin Maliyyə Nazirliyinin tabeliyində olan müvafiq quruma həvalə edilməlidir.

**ADR Partiyası hesab edir ki,** Türkiyə və Gürcüstanla münasibətlərə xüsusi önəm verilməlidir. Belə yanaşma GUAM ölkələri səviyyəsidə genişləndirilə bilər. Türkiyə ilə münasibətlər strateji, qardaşlıq səviyyəsində qalmalı viza məhdudiyyəti ikitərəfli qaydada tam aradan qaldırılmalı, investisiya əməkdaşlığı, tirarət münasibətləri möhkəmləndirilməli və münasibətlər siyasi - iqtisadi- hərbi ittifaq səviyyəsinə qaldırılmalıdır. Qonşu dövlətlərlə sərhədlərin tam şəffaflığı təmin edilməlidir, insanların, xidmətlərin və malların tam azad dövriyyəsi təmin edilməlidir. İran və Rusiya ilə normal, tarazlı, kifayət qədər ehtiyatlı, qarşılıqlı maraqların qorunması əsasında münasibətlər qurulmalıdır. Bu iətəqamətə ən savadlı diplomatlar cəlb edilməlidir. Avropa Birliyi ilə münasibətlər Şərq Tərəfdaşlıq Proqramı çərçivəsində inkiaf etdirilməli, Assosiasiya müqaviləsi, Dərin və Hərtərəfli Azad Ticarət Sazişi imzalanmalıdır. Azərbaycan qanunlarını, müxtəlif standartlarını Avropa Birliyinin (AB) səviyyəsinə qaldırmalı və AB-nin üzvlüyə namizədlər üçün mütləq olan sahələrdə islahatlar aparılmalıdır. Bunun üçün Avropa Birliyindən texniki dəstəyindən istifadə olunmalıdır.